**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TƏLƏBƏLƏRDƏ MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI ONLARDA SOSİALLAŞMANIN ƏSASI KİMİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

**İddiaçı: TAHİRƏ ƏNVƏR QIZI QULİYEVA**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov**,
pedaqoji elmlər doktoru, professor

**Rəsmi opponentlər:**

pedaqoji elmlər doktoru, professor
**Firədun Nadir oğlu İbrahimov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Sahib Əmirxan oğlu Məmmədov**

pedaqogika üzrə fəlsəfə doktoru
**Ruhəngiz Məmməd qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ________ pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi ________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: ________ pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tələbələrin sosiallaşması pedaqoji problemlər arasında özünəməxsus yer tutur. Dövlətin təhsil siyasəti tələb edir ki, ölkəmizdə sosial fəallığa, peşə səriştəliliyinə, yüksək mədəniyyətə, müstəqilliyə, təşəbbüskarlığa, məsuliyyət hissinə malik vətəndaşlar yetişdirilsin.

Şəxsiyyətin sosiallaşması problemi bir çox elm sahələri üzrə mütəxəssisləri, o cümlədən pedaqoq və psixoloqları, sosioloq və filosofları özünə cəlb etmişdir. Respublikamızda A.N. Abbasov, F.A. Rüstəmov, H.Ə. Əlizadə, P.B. Əliyev, M.S. Kazımov və B.S. Ağayeva öz tədqiqatlarında sosiallaşmanın ayrı-ayrı məsələlərinə bu və ya digər dərəcədə diqqət yetirmişlər.

Xarici ölkələrdə S.V. Başirova, İ.A. Karelina, Y.V. Kablinova, N.S. Şutilina, O.V. Vasilenko və b. sosiallaşmanın mahiyyətinə, məqsəd və vəzifələrinə, mexanizm və amillərinə münasibət bildirmişlər.

Tələbələrdə sosiallaşmanın formalaşdırılması zamanı bir sıra vasitələrdən istifadə olunur. Bu, sosiallaşmanın təşəkkül tapmasına kömək göstərir.

Təhsilalanlarda mənəvi mədəniyyətin formalaşdırılması kimi önəmli problemə Azərbaycan pedaqoqlarından Ə.Ş. Həşimov, Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.N. Abbasov, F.A. Rüstəmov, P.B. Əliyev, T.H. Hüseynova və b. öz münasibətlərini bildirmişlər.

MDB ölkələrində, o cümlədən Rusiyada ümumtəhsil məktəbləri şagirdlərində, kollec və ali təhsil müəssisələri tələbələrində ayrıca götürülməklə mənəvi mədəniyyətin formalaşdırılması mühüm tədqiqatların obyekti olmuşdur. Bu baxımdan J.B. Baldanovanın, R.B. Qodjiyevanın, O.Y.

Zubovun, S.K. Maqometovanın, S.Q. Maxmadaliyevin, R.A. Saxabutdinovanın, N.V. Maxovanın, S.P. Razikovanın və b. tədqiqatlarını qeyd etmək mümkündür.

Respublikamızda T.H. Hüseynova 2018-ci ildə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Kiçikyaşlı şagirdlərdə mənəvi mədəniyyətin formalaşması üzrə işin sistemi" mövzusunda dissertasiya müdafiə etmişdir. Müəllif dissertasiyada mənəvi mədəniyyətin elmi-nəzəri və pedaqoji əsaslarını müəyyənləşdirməyi; təlim prosesində və dərsdənkənar tədbirlər zamanı ibtidai sinif şagirdlərinin mənəvi mədəniyyətinin formalaşdırılmasının imkanlarına və yollarına aydınlıq gətirməyi qarşısına məqsəd qoymuşdur.

Haqqında danışılan dissertasiyanın mövzusu bizim tədqiqatın mövzusuna bu və ya digər dərəcədə yaxındır. Lakin fərqli cəhətləri daha çoxdur. Əvvəla, T.H. Hüseynova ümumtəhsil məktəblərinin ibtidai siniflərini (şagirdləri), biz isə ali təhsil müəssisələrinin I və II tədris ili tələbələrini; T.H. Hüseynova Azərbaycan dili, həyat bilgisi, musiqi və təsviri incəsənət fənlərini, biz isə Azərbaycan tarixi, uşaq ədəbiyyatı və ailə pedaqogikası fənlərini əhatə etmişik. T.H. Hüseynova - kiçikyaşlı məktəblilərdə *mənəvi mədəniyyətinin,* biz isə, *milli-mənəvi mədəniyyətin* formalaşdırılması əsasında tələbələrdə *sosiallaşmanın* təşəkkülü kimi problemləri tədqiqata cəlb etmişik.

Ali məktəblərimizdə tələbələrdə sosiallaşmanın formalaşdırılması istiqamətində səmərəli işlər görülür, müxtəlif tədbirlər həyata keçirilir.

Sosiallaşma problemi XIX əsrin sonlarında diqqət mərkəzinə gəlib, ötən yüzilliyin 30-cu illərindən etibarən öyrənilməyə başlayıb, 70-ci illərdən sonra aktuallığı müstəsna dərəcədə artıb. Sosiallaşma dedikdə, təhsilalanların, o cümlədən tələbələrin müxtəlif sosial rolları mənimsəmələri üçün şəraitin yaradılması prosesi başa düşülməlidir. Həmin rollara daxildir:

peşəkarlıq, ictimai və ailə sahibi rolu və s. Şəxsiyyətin sosiallaşmasının nəticəsi – sosiallaşmaq (sosiallaşmış olmaq) deməkdir. Şəxsiyyətin inteqrativ xarakteri əsas sosial rolları yüksək səviyyədə aparmağı nəzərdə tutur.

Tələbələrdə sosiallaşmanın təşəkkül tapmasında milli-mənəvi dəyərlər müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli-mənəvi dəyərlərimizi yüksək qiymətləndirir. Cənab İlham Əliyev deyir*: "Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, vətənə bağlı olmalıdır Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, ... fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır" (1, s. 17).*[1]

Aparılmış məqsədyönlü, sistemli, fasiləsiz iş nəticəsində tələbələr milli-mənəvi kateqoriyaları mənimsəyirlər. Səmərəli göstəriciləri əldə etmək üçün ali təhsil müəssisələrinin pedaqoji kollektivləri səfərbər olmalı, innovativ metodlarından faydalanmalıdırlar. Görülən bütün işlər ona doğru yönəlməlidir ki, tələbələrin sosiallaşması mümkün olsun.

Problemin aktuallığı nəzərə alınaraq, dissertasiya mövzusu aşağıdakı şəkildə müəyyənləşdirildi: "Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması onlarda sosiallaşmanın əsası kimi".

**Tədqiqatın obyekti** – tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması prosesidir.

**Tədqiqatın predmetini** tələbələrin sosiallaşmasının əsası olaraq milli və mənəvi mədəniyyətin formalaşdırılmasının təşkilatı-pedaqoji imkanları təşkil edir.

**Tədqiqatın məqsədi** - ali məktəb tələbələrində milli və mənəvi mədəniyyətin formalaşdırılması və bu əsasda onlarda

---

[1] İlham Əliyev. İnkişaf müstəqilliyimizdir. 105-ci kitab. Bakı: Azərnəşr, 2020.

sosiallaşmanın təşəkkülünün nəzəri və praktik əsaslarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri**.

-tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin nəzəri əsaslarına aydınlıq gətirmək;

-şəxsiyyətin milli və mənəvi mədəniyyətinin formalaşdırılmasının tarixi, fəlsəfi və sosial-pedaqoji aspektlərini işləmək;

-tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin mahiyyətini, məqsəd və vəzifələrini müəyyənləşdirmək;

-tələbələrin sosiallaşmasını dövlətin təhsil siyasətinin tələbi kimi nəzərdən keçirmək;

-tələbələrin milli və mənəvi mədəniyyətinə sosial-pedaqoji problem kimi yanaşmaq;

-tələbələrin sosiallaşmasında milli və mənəvi mədəniyyətin rolunu aydınlaşdırmaq;

-tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin praktik məsələlərini tədqiq etmək;

-milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işləri tələbələrin sosiallaşmasının başlıca şərti kimi araşdırmaq;

-təlim prosesində (mühazirə və seminar məşğələlərində) tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanlarını və yollarını müəyyən etmək;

-auditoriyadankənar tədbirlər zamanı tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanlarını və yollarını aydınlaşdırmaq;

-eksperimentin təşkili, aparılması və nəticələri barədə məlumat vermək.

Araşdırmalar zamanı aşağıdakı **tədqiqat metodlarından** istifadə olunmuşdur: *nəzəri təhlil və tərkib*,

*pedaqoji müşahidə, pedaqoji müsahibə, sənədlərin öyrənilməsi, riyazi-statistik metodlar, pedaqoji eksperiment.*

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ali təhsil müəssisələrində təlim-tərbiyə mühitinin optimallaşdırılması, milli dəyərlərə önəm verilməsi, milli adət və ənənələrimizdən faydalanmaq tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşmasına və bu əsasda onlarda sosiallaşmanın təşəkkülünə imkan verir.

2. Yüksək səviyyədə təşkil olunan təlim prosesi (mühazirə və seminar məşğələləri), auditoriyadankənar tədbirlər tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılmasına, nəticədə onlarda sosiallaşmanın yüksək səviyyədə təşəkkülünə şərait yaradır.

3. Sosiallaşmanın modeli aydın təsəvvür edilməlidir. Bu model özündə aşağıdakıları birləşdirir: 3.1. Tələbələrin sosiallaşmasının məqsədi. 3.2. Şəxsiyyətin sosiallaşmasına kömək edən və iki blokdan ibarət olan məzmun: a) tələbənin təlim fəaliyyəti; b) tələbənin auditoriyadankənar fəaliyyəti. 3.3. Professor-müəllim heyətinin fəaliyyəti. 3.4. Sosiallaşma metodları (tələbənin şüurunu formalaşdıran metodlar: söhbət, mühazirə, disput, nümunə; fəaliyyətin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlar: ictimai rəyin formalaşdırılması, alışdırma, tapşırıq, tərbiyəvi vəziyyətin yaradılması və s.; davranışın və fəaliyyətin stimullaşdırılması: yarış, rəğbətləndirmə, cəzalandırma və s.). 3.5. Sosiallaşmanın formaları (fərdi, kollektiv, qrup halında). 3.6. Sosiallaşmanın vasitələri. 3.7. Sosiallaşma prosesinin nəticələri: tələbənin təhsili, tərbiyəsi, özünütəhsili, özünütərbiyəsi, yenidəntərbiyəsi və özünüdərki. Bunun obrazı özündə 3 komponenti birləşdirir: 1) özünü tanı; 2) özünü qiymətləndirmə; 3) özünə münasibət.

**Tədqiqatın elmi yeniliyi -** milli və mənəvi mədəniyyətin formalaşdırılması əsasında tələbələrdə sosiallaşmanın təşəkkül tapması üzrə aparılan işlərin mahiyyəti və məzmunu

müəyyənləşdirilmiş, “milli-mənəvi mədəniyyət” və “sosiallaşması” anlayışlarına aydınlıq gətirilmişdir. Bundan başqa, sosiallaşmanın təşəkkülünü təmin edən pedaqoji xüsusiyyətlər, məqsəd, məzmun, texnologiya, forma, metod və meyarları özündə birləşdirən model işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Dissertasiyada irəli sürülən elmi ideyalar milli-mənəvi dəyərlərdən faydalanmaqla tələbələrin sosiallaşması problemini elmi əsaslarda qurmağa kömək edəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti:**
Tədqiqat dissertasiyada nəzərdən keçirilən problemin səmərəli təşkilində ali məktəblərin pedaqoji kollektivlərinə öz köməyini göstərəcəkdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Təklif olunan iş sistemi Gəncə Dövlət Universitetində tətbiq edilmişdir. Tədqiqatın əsas məzmunu, başlıca elmi ideyaları və nəticələri ilə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda 6 və xarici ölkədə 1 məqalə; respublikamızda 2, xarici ölkələrdə 2 konfrans materialı nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya girişdən, 9 paraqrafı özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, istifadə olunmuş tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti öz əksini tapmışdır.

**Dissertasiyanın I fəsli “Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin nəzəri əsasları”** adlanır. Bu fəsil 5 paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafında ***“Şəxsiyyətin milli-mənəvi mədəniyyətinin***

***formalaşdırılmasının tarixi, fəlsəfi və sosial-pedaqoji aspektləri"*** kimi mühüm məsələ nəzərdən keçirilir**.** Göstərilir ki, şəxsiyyətin istər milli və mənəvi mədəniyyətinin, istərsə də sosiallaşmasının formalaşdırılması problemləri tarixən aktual olmuşdur. Odur ki, dissertasiyada ilk növbədə şəxsiyyətin milli və mənəvi mədəniyyətinin formalaşdırılmasının tarixi, fəlsəfi və sosial-pedaqoji aspektlərinə münasibət bildirilir.

Mütəfəkkirlər, filosoflar mənəvi mədəniyyətin rolunu həmişə yüksək qiymətləndirmişlər. Dissertasiyada Konfutsinin və onun ardıcılı Xan Feyin, Sokratın, Platonun, Aritotelin, Demokritin, Protaqorun, Con Lokkin, Benedikt Spinozanın, İmannuel Kantın, Hegelin, Feyerbaxın, Mirzə Fətəli Axundzadənin, Abbasqulu ağa Bakıxanovun fikirlərinə müraciət edilir. Sokrat mənəvi mədəniyyətə yiyələnmədə "Özünü tanı" kəlamına öncül yer verirdi. Dahi filosofa görə, xeyir bilik öz ifadəsini tapırsa, şər cəhalətin nəticəsi kimi meydana gəlir. Var-dövlətə gəldikdə isə, sərvət, ümumiyyətlə, xeyir gətirmir. Sokratın qənaəti belə idi ki, adamlar əxlaqsız hərəkətlərin nə olduğunu aydın təsəvvür etsəydilər, pis hərəkətlərə yol verməzdilər. Nöqsanları doğuran bilməməzlikdir. Naqis əməl insanın səhvi kimi meydana gəlir. Dissertasiyada Demokritin mənəvi mədəniyyətlə sıx bağlı olan aşağıdakı fikirləri diqqətə çatdırılır: *"Yaxşı adam o şəxs deyil ki, yalnız pislik etməsin; o gərək heç bir pislik barədə düşünməsin də".*[2]

Abbasqulu ağa Bakıxanov öz əsərlərində yaxşılığı şəxsiyyətin çox dəyərli keyfiyyəti, ən gözəl xasiyyəti kimi təqdim edirdi. Dahi mütəfəkkir yazırdı: "*Əxlaqi gözəllik*

[2] Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2005.

*haqqında demək lazımdır ki, bu xasiyyət hər kəsdə fitri olarsa, onun dostu çox olar. Çünki o, səbəbsiz heç kəsi incitməz"*[3]

Tələbələrlə tərbiyə işləri aparılarkən onlara başa salınmalıdır ki, mənalı həyat ən böyük sərvətdir. İnsan digər canlılarla müqayisədə eyni zamanda ictimai varlıqdır. Odur ki, o, kor-koranə ömür sürmür, şüurlu şəkildə öz həyatının mənası barədə fikirləşir. Elə bu səbəbdən də əxlaq nəzəriyyəsində xüsusi problem - insan həyatının mənası problemi mövcuddur. Sağlam düşüncəyə yiyələnmiş elə şəxs olmaz ki, həyatın mənasının nə olması ilə bağlı özünə sual verməsin. İnsanlar nə üçün mövcuddurlar, həyatın mənası olurmu, olursa nədədir, hansı həyat tərzini seçmək məqsədəuyğundur?

Dissertasiyada bu suallara cavab verilir.

I fəslin ikinci paraqrafı "***Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması: mahiyyəti, məqsəd və vəzifələri"*** adlandırılmışdır. Paraqrafda bu məsələlər nəzərdən keçirilərkən "Ali təhsil müəssisəsinin nümunəvi Nizamnaməsi"ndə öz əksini tapmış ümdə vəzifələr yada salınır. Eyni zamanda "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa da müraciət olunur. Qanunun "Təhsilin əsas məqsədi" adlı dördüncü maddəsi diqqətə çatdırılır.

Azərbaycanda gənclər siyasəti gənclərin hərtərəfli və ahəngdar inkişafına, cəmiyyət həyatında yaxından iştirakına, fəal vətəndaşlıq mövqeyi qazanmasına öz köməyini göstərir. Gənclər siyasəti gənclərin sağlamlığı, təhsili, tərbiyəsi, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin ayrı-ayrı sahələrində yaxından iştirakı kimi mühüm məsələləri özündə birləşdirir. Azərbaycan gəncliyi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, elm və başqa sahələrdə uğurlara imza atır, dövlətçilik

[3]https://www.facebook.com/QezelVeSeyirlr/posts/616218275098197

ənənələrini uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasına öz töhfələrini verirlər.

Tələbələrdə milli və mənəvi mədəniyyətinin formalaşdırılmasının uğurlu olmasından ötrü milli şüur və mənəvi mədəniyyət barədə aydın təsəvvürə malik olmağımız və həmin istiqamətdə sistemli, məqsədyönlü işlərin aparılması lazımdır.

Mənəvi şüurun təşəkkülündə və mənəvi davranış təcrübəsinin formalaşmasında mənəvi inam və mənəvi əqidə böyük rol oynayır. Milli şüur və milli mədəniyyət istənilən millətin ayrılmaz və çox mühüm əlamətidir. Milli mədəniyyət milli özünüdərkin daşıyıcısı kimi çıxış edir. Mənlik şüuruna yiyələnən şəxs öz davranış və rəftar tərzini, hərəkətlərini müstəqil şəkildə seçə bilir, başqa adamlar qarşısında məsuliyyətini anlayır, özünü təhlil və özünümühakimə qabiliyyətinə yiyələnir, özünə gündəlik hesabat verir.

I fəslin ***"Tələbələrin sosiallaşması yeni pedaqoji təfəkkürün tələbi kimi"*** adlanan üçüncü paraqrafında aşağıdakı məsələlərin üzərində dayanılır: "Sosiallaşma" anlayışı konkret sosiomədəni kontekstdə insanın sosial kamilliyinin, sosial keyfiyyətlərinin inkişafının səviyyəsi deməkdir. "Sosiallaşma" termini latınca *socialis — "sosial" ("ictimai")* sözündən əmələ gəlmişdir.

"Sosiallaşma" anlayışını elmə ilk dəfə XIX əsrin sonlarında fransız sosioloqu E. Dürkqeym gətirmişdir. Şəxsiyyətin, həmçinin tələbənin sosiallaşması problemi bu gün də öz aktuallığını özündə saxlayır. Sosiallaşma prosesi şəxsiyyətin cəmiyyətə adaptasiyasını nəzərdə tutur. Bu, o deməkdir ki, insan, ayrı-ayrı şəxslər cəmiyyətin fəal üzvləri olurlar. Deməli, sosiallaşma tələbə-gənclərin, insanların fəal vətəndaşlar, şəxsiyyətlər kimi formalaşma prosesi, bu cəmiyyətə, sosial birliyə, qrupa xas olan sərvətlərin, normaların, ustanovkaların, davranış nümunələrinin, mənsub olduğu

toplumun bir hissəsi olduğunu öyrənməsidir. Başqa sözlə, şəxsiyyətin inkişafı, sosiallaşma tələbələrin yaşadığı cəmiyyətə uyğunlaşması deməkdir.

İnsanın şəxsiyyət kimi formalaşmada bioloji və psixoloji amillərlə bərabər, sosial amillər də təsir göstərir. Sosial amil dedikdə, söhbət ictimai-siyasi fəaliyyətdən gedir. Sosial amilin təsiri ilə fəal vətəndaş yetişir. Şəxsiyyətin sosiallaşma üçün, hər şeydən əvvəl mühit, başqa sözlə cəmiyyət, insanın sosiallaşmaya psixoloji hazırlığı və ehtiyacı böyük əhəmiyyət daşıyır. Sosiallaşmanın uğursuz olması mənfi davranışa yol açır. Bir sıra hallarda uşaq və yeniyetmələr, eyni zamanda tələbə-gənclər onları əhatə edən mikromühitin mənfi təsirini öz üzərlərində hiss edirlər. Belə davranış tərzi isə, adətən cəmiyyət və onun üzvləri tərəfindən qəbul olunmur. Sosiallaşma prosesində başlıca istinad nöqtəsi öz “mən”inin dərk edilməsi və başa düşülməsidir. Bu, şəxsiyyətin öz müstəqilliyinə nail olması ”Mən” obrazının formalaşması prosesində iki fərqli məqamdır. Öz “Mən”ini başa düşmə - şəxsiyyətin sərvət özəyinin inkişafı prosesi kimi nəzərdən keçirilə bilər.

Milli və mənəvi mədəniyyətin formalaşdırılması əsasında tələbələrdə sosiallaşmanın təşəkkül tapmasını təmin etmək məqsədi ilə gənc oğlan və qızlar arasında tərbiyəvi və təhsilləndirici işləri aparan ali təhsil müəssisələrinin pedaqoji kollektivləri, hər şeydən əvvəl “milli mədəniyyət”, “mənəvi mədəniyyət” və “sosiallaşma” anlayışlarının mahiyyətini yaxşı başa düşməli, bu istiqamətdə təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələrin həyata keçirilməsi yollarına bələd olmalıdırlar.

Dissertasiyanın I fəslinin dördüncü paraqrafı **“Tələbənin milli-mənəvi mədəniyyəti sosial-pedaqoji problem kimi”** adlanır. Göstərilir ki, ali məktəbdə aparılan tərbiyəvi işlər şəxsi inkişaf sferasında aşağıdakıları təmin etməlidir: mənəvi inkişafa hazır olma bacarığı, mənəvi özünütəkmilləşdirmə, özünəqiymət,

öz həyatının mənasını dərk etmək, fərdi davranış məsuliyyəti; mənəvi və produktiv fəaliyyətin yaradıcı potensialda realizə edilməsinə hazırlıq və bu sahədə bacarıq; əxlaqi normalar əsasında sosial və peşəkar mobilləşmə, fasiləsiz təlim və hərtərəfli kamilləşmə və təkmilləşmə; azadlıq idealları, iradə və mənəvi ənənələr öz vicdanının səsinə qulaq asmaq; milli və mənəvi mədəniyyətin və sosiallaşmanın təşəkkülü; əxlaqi davranış, qanunun tələblərinin gözlənilməsi; yaxşılıq və xeyirxahlıq arzusu; şəxsiyyətin mənəvi dərkolunması, mənəvi özünüyoxlama, əxlaq normalarını yerinə yetirməyi özündən tələb etmək, özünə və başqalarının hərəkətlərinə mənəvi qiymət vermək; milli-mənəvi dəyərlərin, milli-mənəvi ənənələrin şəxsiyyət tərəfindən qəbul edilməsinə nail olmaq; öz ictimai mövqeyini bildirib onu müdafiə edə bilmək, öz hərəkət və əməllərini tənqidi qiymətləndirmək bacarığı və istəyi; əxlaqi seçim əsasında həyata keçirilən müstəqil işlərə və hərəkətlərə tələbat, onların nəticələrinin məsuliyyətini anlamaq, məqsədə çatmaqda inadkarlıq; digər insanların qədir və qiymətini, insan həyatının dəyərini başa düşmək, həyata təhlükə yaradan hərəkətlərə, şəxsiyyətin fiziki və mənəvi sağlamlığına və ruhi təhlükəsizliyinə qarşı olan hərəkət və təsirlərə qarşı dözümsüzlük; azadlıqsevərlik, peşəkara, vətəndaşa, inkişafa rəğbət; ailə, cəmiyyət, Vətən, gələcək nəsillər qarşısında əxlaqi cavabdehlik və s.

İctimai münasibətlər sferasında milli-mənəvi inkişaf və tərbiyə ali məktəb tələbələrini aşağıdakılarla təmin etməlidir: vətənpərvərlik və vətəndaş həmrəyliyi hissinin inkişafı; milli-mənəvi dəyərlərin mənimsənilməsi, milli adət və ənənələrlə tanışlıq, onların qorunması və təbliği; vətənpərvərlik, yurdsevərlik nümayiş etdirmək; çoxmillətli Azərbaycan xalqının firavanlığı qayğısına qalmaq, etnikarası sülh və razılaşmanın qorunması; ailə dəyərlərinə rəğbət, ailənin şərəf və

ləyaqətini qorumaq; şəxsi və ictimai şərəf və ləyaqət hisslərinə malik olmaq və s.

Vətənə lazımdır: ailəni başa düşən və ona dayaq olan mənəvi dayaqlar, məhəbbət, qarşılıqlı kömək, valideynə hörmət, kiçik və böyüklərə qayğı, insana həssaslıq, nəslin artırılması kimi müqəddəs duyğu, nəsillərin mənəvi, mədəni və sosial varisliyi.

Şəxsiyyətin milli-mənəvi inkişafı bütövlükdə mürəkkəb və çoxplanlı prosesdir. O, insan həyatının bütün sahəsini əhatə edir. Bununla əlaqədar olaraq ali məktəblərdə tədris və tərbiyə prosesində elə pedaqoji metodlardan istifadə etmək lazımdır ki, tələbə əmin olsun ki, o, cəmiyyətə, Vətənə layiq övlad kimi böyüməli, yetişməlidir. İnsan xeyirxahlığı pislikdən ayıra bilmirsə, həyatı, ailəni, digər adamları düzgün qiymətləndirmirsə, yaxud obyektiv qiymət vermək fikrində deyilsə, deməli, o, yaxşı tərbiyə almamışdır. İnsan özünü hansı mənəvi münasibətlərdə tapırsa, həmin münasibətlər mühitində öz şəxsiyyətini inkişaf etdirir.

Tələbələrin milli-mənəvi mədəniyyətinin formalaşdırılması baxımından təlim prosesinin imkanları çoxdur. Ayrı-ayrı ali məktəb fənləri (Azərbaycan tarixi, ədəbiyyat, uşaq ədəbiyyatı, pedaqogika, psixologiya, ailə pedaqogikası, milli əxlaq və ailə etikası və s.) buna imkan yaradır.

I fəslin beşinci paraqrafı **“Tələbələrin sosiallaşmasında milli-mənəvi mədəniyyətin rolu”** adlanır. Bu paraqrafda göstərilir ki, sosiallaşma hər bir kəsin cəmiyyətin tamdəyərli üzvü olmasına imkan və şərait yaradır. Müasir milli tərbiyəvi ideal ölkəmizin taleyini düşünən, onun təhlükəsizliyi, suverenliyi, azadlığı uğrunda hər zaman mübarizəyə hazır olan, Vətənimizin keşiyində və müdafiəsində duran yüksək mənəviyyatlı, yaradıcı, təşəbbüskar, səriştəli Azərbaycan vətəndaşıdır. Tələbə şəxsiyyətinin mənəvi-ruhi inkişafının və

tərbiyəsinin, onun mənəvi həyat tərzinin təşkili aşağıda göstərilənlərə əsasən reallaşır: müəllimin mənəvi idealı; sosial-pedaqoji tərəfdaşlıq; fərdi inkişaf; mənəvi-ruhi tərbiyə proqramının inteqrativliyi; tərbiyənin sosial tələblər baxımdan aktuallığı və s.

Tələbələrin sosiallaşmasında mənəvi-ruhi mədəniyyətin formalaşdırılması zamanı bəzi ***meyarlar*** əsas götürülməlidir. Həmin meyarlar aşağıdakılar ola bilər: 1. Aktual sosial-pedaqoji problemlərin həlli məqsədilə təhsil metodikalarının əhəmiyyətinin dərk olunması; 2. Mənəvi-ruhi mədəniyyətin əsaslarının öyrənilməsi formalarına və vasitələrinə, mənəvi-ruhi ideal təhsil proqramlarının məzmununa və məqsədlərinə, metodikalarına, Azərbaycan Respublikasının təhsillə bağlı qanunvericiliyinə, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dəsti-xətt seçmək.

Şəxsiyyətin sosiallaşmasının mərhələləri: 1. Birinci sosiallaşma - şəxsiyyətin anadan olmasından onun təşəkkülünə qədər davam edir. 2. İkinci sosiallaşma - kamillik və sosiumda olma dövründə şəxsiyyətdə yenidən təşkilolunma baş verir. Ali məktəblərin pedaqoji kollektivləri yuxarıda deyilən məsələləri öz fəaliyyətlərində nəzərə almalıdırlar.

Dissertasiyanın II fəsli **"Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin praktik məsələləri"** adlanır. Bu fəsil 4 paraqrafdan ibarətdir. Fəslin "***Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi"*** adlanan birinci paraqrafında deyilir: milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi nəzərdən keçirilə bilər. Tələbələr ali təhsil müəssisələrində müəyyən peşələrə (müəllim), konkret ixtisaslara (tarix müəllimi) yiyələnirlər. Gələcək mütəxəssis üçün mədəniyyət heç də bir ovuc dəyər deyil, əslində yaradıcı

fəaliyyət imkanları, mənəviyyat, ruhi aləmdir, əxlaqi təmizlik, saflıqdır.

Tələbələrdə milli-mənəvi mədəniyyətin təşəkkülü istiqamətində aşağıdakı vəzifələr həyata keçirilməlidir: tələbələrdə mənəvi-ruhi inkişafa, mənəvi təkmilləşməyə, özünüqiymətləndirməyə, öz həyatının mənasını bilməyə, nümunəvi davranışa tələbat yaradılmalıdır; əxlaqi normalar əsasında mənəvi fəaliyyətdə, sosial və peşə mobilliyində fəallıq olmalıdır; azadlığa, iradəyə və mənəvi-ruhi milli ənənələrə əsaslanmaqla mənəviyyatı inkişaf etdirmək lazımdır, əxlaqın saflaşdırılması təmin olunmalıdır; tələbələrdə vicdanlılıq, xeyirxahlıq, ədalətlilik, humanizm, obyektivlik, insansevərlik, vətənpərvərlik və s. bu kimi müsbət keyfiyyətlərin formalaşdırılması qayğısına qalmaq lazımdır; milli dəyərlərə, milli mənəvi adət və ənənələrə hörmət hissləri inkişaf etdirilməlidir; milli şərəf və milli ləyaqət, ailə şərəfi və ləyaqəti, milli mənlik şüuru formalaşdırılmalıdır; tələbələrdə tənqidi təfəkkürün inkişaf etdirilməsi qayğısına qalınmalı, özünütənqid bacarığı yaradılmalıdır; toleranqlığın tərbiyə olunmasına nail olunmalı, intolerantlığın yalnız düşmənə münasibətdə lazım gəldiyi tələbələrə başa salınmalıdır; başqalarının mənafeyinin tapdalanmaması, eyni zamanda insan həyatının dəyərinin başa düşülməsi təmin edilməlidir; insanların həyatına, bəşəriyyətin mövcudluğuna təhlükə törədə biləcək hallara qarşı barışmazlıq tərbiyə olunmalı, ətraf mühitin, ekologiyanın qorunmasına tələbat yaradılmalıdır; öz ailəsi, Vətənimiz üçün borc, məsuliyyət hissi, cavabdehlik formalaşdırılmalıdır və s.

Fəslin ikinci paraqrafı *“**Təlim prosesində tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanları və yolları”*** adlanır. Tələbələrdə milli-mənəvi mədəniyyətin tərbiyə olunmasında təlim prosesinin özünəməxsus rolu vardır. Ali təhsil müəssisələrində bu iş mühazirə və seminar məşğələlərinin köməyi ilə həyata keçirilir. Mühazirəçi professor, dosent, baş

müəllim ayrı-ayrı mövzuların tərbiyələndirici imkanlarından faydalanaraq tələbələri milli və mənəvi mədəniyyətə yiyələndirməklə onların sosiallaşması qayğısına qalır.

Tədqiqatın gedişində ali təhsil müəssisələrinin Azərbaycan tarixi, ədəbiyyat, uşaq ədəbiyyatı, pedaqogika, psixologiya, milli əxlaq və ailə etikası və ailə pedaqogikası fənlərinin dissertasiyada nəzərən keçirilən problem baxımından imkanları araşdırıldı, dərslər, mühazirə və seminar məşğələləri müşahidə olundu. İlk növbədə Azərbaycan tarixi fənninin imkanları nəzərdən keçirildi. Diqqət milli-mənəvi mədəniyyətin və bu əsasda tələbələrə sosiallaşmanın aşılanması məsələlərinə yönəldi. İbtidai təhsil fakültəsinin və filologiya (Azərbaycan dili və ədəbiyyat) fakültəsinin tələbələri tədqiqata cəlb edildilər. Dissertasiyada Azərbaycan tarixi fənni üzrə tədqiqata cəlb olunan mövzularla tanış olmaq mümkündür.

Tədqiqat zamanı ali təhsil müəssisələrinin Azərbaycan uşaq ədəbiyyatı fənn proqram və dərsliyi də dissertasiyadan nəzərdən keçirilən problem baxımından araşdırıldı. Mövcud vəziyyət dissertasiyada öz əksini tapmışdır. Əsərlərinin öyrənilməsi nəzərdə tutulan yazıçı və şairlərin yaradıcılıq nümunələrinin, hər birinin, eyni zamanda folklor nümunələrinin tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması və bu əsasda onlarda sosiallaşmanın tərbiyə olunması baxımından imkanları vardır.

Uşaq ədəbiyyatı fənni üzrə seminar məşğələsində (ibtidai sinif müəllimliyi ixtisası) Abbasqulu Bakıxanovun həyat və yaradıcılığı ilə tanışlıq zamanı onun digər mənzum hekayələri ilə yanaşı "Ümidin boşa çıxması" əsəri üzərində xüsusi dayanılır. Bu mənzum hekayə də tərbiyələndirici, təhsilləndirici imkanlara malikdir.

Milli və mənəvi mədəniyyətin tərbiyəsi şərtlərinin müəyyənləşdirilməsində *əsas istiqamətlərdən biri* tərbiyəvi mühitin formalaşdırılmasıdır. Bu istiqamətdə aparılan işlər o

zaman uğurlu sayıla bilər ki, mühitin hər bir komponenti əvəzolunmaz və digəri ilə qarşılıqlı əlaqədə olsun. Milli və mənəvi mədəniyyətin formalaşmasında *ikinci şərt* - tələbələrin milli-tərbiyəedici fəaliyyətə cəlb olunmasıdır. Bu zaman aşağıdakılar nəzərə alınmalıdır: tərbiyəvi tədbirlərin planlaşdırılmasında özünü göstərən ehtiyac, maraq, tələbənin arzu və meyli; məzmunun tamlığı; tələbələrin subyektiv mövqelərinin inkişafına yönəlmiş tərbiyəvi işlər; tərbiyəvi tədbirlərin kollektiv planlaşdırılmasında tələbənin ehtiyacının, marağının, meylinin nəzərə alınması; təlimdənkənar yaradıcı fəaliyyətin təşkili zamanı sosial-mədəni fəaliyyətin tərbiyəvi imkanlarından faydalanmaq; tərbiyəvi işlərin tələbələrin subyekt mövqelərinə yönəlməsi; təlimdənkənar tədbirlərdə tərbiyəvi təsirlər zamanı fərdiləşdirmə və diferensiallaşma əsasında dəyər emosiyaların stimullaşdırılmasında vasitələrin tətbiqi.

II fəslin üçüncü paraqrafı "***Auditoriyadankənar tədbirlər zamanı tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanları və yolları***" adlanır. Auditoriyadankənar işlərin təşkili zamanı aşağıdakı cəhətlər diqqət mərkəzində dayanırdı: tərbiyəvi tədbirlərin düzgün planlaşdırılması; tədbirlərin təşkili zamanı tələbələrin arzu və istəklərinin, maraq və meyllərinin; müstəqilliyinin, təşəbbüskarlığının nəzərə alınması; hər bir tələbənin subyektiv mövqelərinin inkişafına şərait yaratmaq; təlimdənkənar yaradıcı fəaliyyət zamanı sosial-mədəni işlərin tərbiyəvi imkanlarından faydalanmaq və s.

Ali təhsil müəssisələrinin təcrübəsində auditoriyadankənar işin söhbət, müzakirə, disput, müsabiqə, yarış, dəyirmi masa ətrafında rəy mübadilələri, tematik axşam, görüş, ekskursiya, kino-filmlərə, televiziya və teatr tamaşalarına, sərgilərə baxışlar, "Şən və hazırcavablar klubu"nın fəaliyyəti və s. geniş yayılmışdı. Həmin iş formaları tələbələrdə milli və mənəvi

mədəniyyətin formalaşdırılmasına və sosiallaşmanın təşəkkülünə kömək göstərirdi.

Eksperimentə cəld edilmiş tələbə qrupları ilə “Azərbaycan mütəfəkkirləri mənəvi keyfiyyətlərə yiyələnməyin vacibliyi haqqında”, “Davranış mədəniyyəti”, “Xoşbəxtliyin sirri nədədir”, “Erməni qəsbkarlarının məkirli siyasəti”, “Yenidənqurma - yenidənqırma”, “Həyatın mənası”, “Xoşbəxt ailənin sirləri”, “Yaxşı dost”, İdeal oğlanın (qızın) portreti”, “Haradan başlanır Vətən”, “20 Yanvar - həyata keçirilmiş dəhşətli soyqırım”, “Xocalı faciəsi - dünyanı dəhşətə gətirən soyqırım” və s. mövzularda söhbətlər; “Ailə səadətinin mənası nədir?”, “Layiqli oğul nə deməkdi”, “Sevimli adamın şərəfini necə qorumalı?”, “Haqsız təhqir”, “Sadəlik və təvazökarlıq”, “Sənin hüquq və vəzifələrin”, “Sənin qanun qarşısında borcun” və s. mövzularda müzakirə və disputlar keçirilirdi.

Auditoriyadankənar iş sistemli xarakter daşıyır. Bu işin vacib elementi fərdi məsləhətlər sayılır ki, onların da mövcudluğu və xüsusiyyəti ayrıca nəzarət tələb edir. Müəllimin tələbələrlə auditoriyadankənar ünsiyyəti böyük tərbiyəvi əhəmiyyət daşıyır. Müəllimin pedaqoji səriştəliliyi bu sahədə zəngin imkanlara malikdir.

Anadan olan hər bir şəxs tədricən insan mədəniyyətini mənimsəməli olur, mühitin və tərbiyənin sayəsində özünəməxsus xüsusiyyətlərə yiyələnir, cəmiyyətdə özünə müəyyən yer tutur, həyatda özünü təsdiq edir. Nəticədə o, şəxsiyyətə çevrilir. Gələcək müəllimlərin (hazırki tələbələrin) istər təlim prosesində - mühazirələrdə və seminar məşğələlərində, istərsə də auditoriyadankənar tədbirlərdə sosiallaşması qayğısına qalmaq institut və universitetlərin pedaqoji kollektivlərin ümdə vəzifəsi olmalıdır.

II fəslin dördüncü paraqrafı “***Pedaqoji eksperimentin təşkili, aparılması və nəticələri”*** adlanır. Eksperiment zamanı aşağıdakı **fərziyyə** irəli sürülmüşdür: milli və mənəvi

mədəniyyətin formalaşdırılması aşağıdakı şərtlər daxilində tələbələrdə sosiallaşmanın əsası ola bilər:

-problemin nəzəri məsələləri aydın təsəvvür edilərsə;

-problemin praktik məsələləri yüksək səviyyədə həllini taparsa;

-ailədə, təlim prosesində və auditoriyadankənar vaxtlarda tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılmasının pedaqoji mexanizmi düzgün qurularsa – təhsilalanların sosiallaşmasını təmin etmək mümkün olar.

Pedaqoji eksperimentin birinci - müəyyənedici mərhələsi tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşdırılması və həmin əsasda onlarda sosiallaşmanın təşəkkülü problemi üzrə hazırki vəziyyət haqqında aydın təsəvvür yaratdı.

Dissertasiyada nəzərdən keçirilən problem baxımından bəyəniləsi və nöqsanlı sayılacaq cəhətlər aşkara çıxarıldı. Eksperimentin müəyyənləşdirici mərhələsinin sonlarında eksperimental və kontrol qrupları ayırdıq. Azərbaycan tarixi, uşaq ədəbiyyatı, pedaqogika, psixologiya, ailə pedaqogikası, milli əxlaq və ailə etikası ali məktəb fənləri üzrə mövzular eksperimentin əsas materialları kimi götürüldü. Eksperimentdə iştirak edən pedaqoji kollektiv üzvlərinin (həm eksperimental, həm də kontrol), qrupların və tələbələrin səviyyələrinin bərabər olmalarına fikir verildi.

İş stajları təxminən eyni olan müəllimlər eksperimentə cəlb edildilər.

Eksperimentdə iştirak edən tələbə qruplarının müəllimləri və tələbələri arasında ardıcıl, məqsədyönlü və sistemli tədbirlər - söhbətlər, rəy mübadilələri, müsahibələr həyata keçirilir, lazım gəldikdə onlara məsləhət və tövsiyələr verilirdi. Biz mütəmadi olaraq mühazirə və seminar məşğələlərində olur, auditoriyadankənar tədbirləri izləyir, müəllimlər və tələbələr arasında sorğu keçirir, onlarla söhbət edirdik.

Dəyişikliklərdən xəbər tutmaq üçün eksperimentin birinci mərhələsində ali təhsil müəssisələri tələbələrinə verilən suallar sonradan, eksperimentin ikinci mərhələsində eksperimental və kontrol qrup tələbələrinə təqdim edilirdi. Bu barədə dissertasiyadan məlumat almaq mümkündür.

Eksperimentin yoxlayıcı mərhələsində milli və mənəvi mədəniyyətin formalaşdırılması üzrə təlim prosesində - mühazirə və seminar məşğələlərində, auditoriyadankənar vaxtlarda aparılan işlər davam etdirildi. Daha səmərəli metodlar, təlim və tərbiyə texnologiyaları tətbiq olunurdu. Təbii ki, yaxşı nəticələr alınır, tələbələrin sosiallaşmasına nail olunurdu. Aşağıdakı cədvəlin göstəriciləri dediklərimizə əyani nümunədir.

**Cədvəl 2.4.2.**

**Eksperimental və kontrol qrup tələbələrində milli-mənəvi mədəniyyətin formalaşdırılması və həmin əsasda sosiallaşmanın təşəkkül səviyyəsini göstərən göstəricilər**

| **Sır** | **Bizi maraqlandıran məsələlər** | **Səviyyələr** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **Yüksək (nəfərlə)** | | **Orta (nəfərlə)** | | **Aşağı (nəfərlə)** | |
| | | Eks. | Kontr | Eks. | Kontr. | Eks. | Kontr. |
| 1 | Nə üçün belə deyilir: şərəf və ləyaqət Azərbaycan vətəndaşının mühüm mənəvi simasıdır? | 54 | 37 | 32 | 42 | 3 | 11 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2 | Ədalətli olmaq nə deməkdir? | 55 | 44 | 32 | 37 | 2 | 9 |
| 3 | Xeyirxahlıq nə üçün lazımdır? | 59 | 47 | 30 | 35 | - | 8 |
| 4 | Mənalı həyat nə üçün böyük sərvər sayılır? | 61 | 43 | 26 | 36 | 2 | 11 |
| 5 | Nə üçün belə deyilir: varını itirən az şey itirər, namusunu itirən çox şey? | 64 | 52 | 24 | 41 | 1 | 7 |
| 6 | Namus özünü nədə ifadə edir? | 62 | 50 | 22 | 28 | 5 | 12 |
| 7 | Qadınların və qızların hansı hərəkətləri onların adına ləkə gətirə bilər? | 61 | 51 | 26 | 32 | 2 | 7 |
| 8 | Biz kimə həyalı adam deyirik? | 66 | 52 | 19 | 32 | 4 | 6 |
| 9 | Kimləri həyasız adam | 63 | 49 | 26 | 34 | - | 7 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | adlandırır-lar? | | | | | | |
| 10. | Məsuliyyət nədir, həyatda məsuliyyət-li olmaq nə üçün lazımdır? | 68 | 53 | 18 | 31 | 3 | 6 |
| 11. | Kimə məsuliyyət-siz adam deyirlər? | 65 | 53 | 25 | 31 | 1 | 4 |
| 12. | Qətran Təbrizinin belə fikri var: “Şərəfli ölüm şərəfsiz həyatdan yaxşıdır. Bu fikri necə dəyərləndi-rərsiniz? | 71 | 57 | 16 | 26 | 2 | 7 |
| 13. | Sizcə, kimi xoşbəxt adlandır-maq olar? | 69 | 51 | 20 | 30 | - | 9 |
| 14. | Həyatda hansı adamı bədbəxt adlandırı-lar? | 72 | 63 | 15 | 21 | 2 | 6 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 15. | Milli-mədəniyyət dedikdə nə başa düşülməli-dir? | 69 | 59 | 17 | 23 | 3 | 8 |
| 16. | Əxlaqi sərvətlərə nələr daxildir? | 62 | 51 | 25 | 27 | 2 | 11 |
| 17. | İntizamlı olmaq nə üçün lazımdır? | 67 | 56 | 22 | 29 | - | 5 |

Qeyd: Sorğuda eksperimental qruplardan 89, kontrol qruplardan 90 tələbə iştirak etmişdi.

Cədvəldən göründüyü kimi, pedaqoji eksperimentin sonuncu - yoxlayıcı mərhələsində kontrol qruplardan olan tələbələrlə müqayisədə eksperimental qruplardan olan tələbələrin fəallığı hiss olunacaq dərəcədə artmışdır. Göstəricilər bu barədə aydın təsəvvür yaradır.

Eksperimental qrupların göstəriciləri kontrol qrupların göstəricilərindən xeyli yüksəkdir.

Beləliklə, irəli sürülən fərziyyə özünü doğrultmuş, eksperimental qrupların tələbələrində milli və mənəvi mədəniyyətin formalaşdırılması və bu əsasda onlarda sosiallaşmanın təşəkkülünə nail olunmuşdur.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

Dövlətin təhsil siyasəti gənclərdə milli-mənəvi mədəniyyətinin formalaşdırılmasını mühüm tələb kimi irəli sürür. Bu sahədə təhsil müəssisələrinin, o cümlədən institut və universitetlərin üzərinə mühüm vəzifələr düşür.

Milli və mənəvi mədəniyyət ali məktəb məzununun sosiallaşması amili kimi çıxış edir: inam, rəğbət, məhəbbət, etibar, sədaqət, xoşbəxtlik arzusu, yaxşılıq və xeyirxahlıq, səbir, hövsələ, təmkin və dözüm və s.

Mühazirə və seminar məşğələləri tələbələrdə milli və mənəvi mədəniyyətin formalaşma dinamikasını artırır. Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması şəraitində tərbiyə və təhsilin milli-mənəvi aspektlərinə olan marağın dərinliyi təzahür edir, müstəqil istiqamətlənmə metodu səmərəli şəkildə həyata keçirilir.

Ali məktəb tələbələrinin milli-mənəvi mədəniyyətlərinin əsas formalaşma meyarları bunlardır: definisial (milli-mənəvi kateqoriyaları bilmək; onları şəxsi prinsiplər kimi qəbul etmək); özünü aparma - iradi (şəxsiyyətin milli və mənəvi mədəniyyətinin bütün fəaliyyət növlərində özünü təsdiqə can atma, sosiallaşmaya tələbat.

Milli-mənəvi kamilləşmə, milli mədəniyyətə yiyələnmə mənəviyyatsızlığa qarşı dözümsüzlük yaradır.

Aparılmış məqsədyönlü, sistemli, fasiləsiz tərbiyələndirici, təhsilləndirici, inkişafetdirici xarakterli işlər tələbələrdə həyatda mənəvi və ruhi prinsipləri rəhbər tutmaq arzusu oyadır, məntiqi düşüncənin formalaşması, ruhi-mənəvi çərçivə daxilində fəaliyyətin məqsədyonlülüyü təmin olunur.

Milli və mənəvi mədəniyyətin formalaşması əsasında tələbələrdə sosiallaşmanın təşəkkülü idarə olunan prosesdir, ali məktəbin tədris-tərbiyəvi prosesinin təsiri ilə daha səmərəli nəticələr əldə olunur, eyni zamanda sosial mühitin təsiri altında inkişaf edir.

Milli və mənəvi mədəniyyətin formalaşdırılması ilə ilk növbədə ailə, valideynlər məşğul olmalıdırlar. Daha sonra uşaq bağçalarında, ümumtəhsil məktəblərində, kolleclərdə bu istiqamətdə işlər aparılmalıdır. Nəhayət, bu işlər ali təhsil müəssisələrində davam etdirilməlidir. Bu sahədə mühazirə və

seminar məşğələlərinin tərbiyəvi imkanlarından istifadə olunmalıdır.

Təlim prosesi ilə yanaşı auditoriyadankənar tədbirlərdə tələbələrdə milli və mədəniyyətin formalaşdırılması və inkişaf etdirilməsi üzrə işlər aparılmalıdır. Bu sahədə respublikamızda qabaqcıl təcrübə vardır. Görüşlərin, söhbətlərin, disput, müzakirə, müsabiqə, dəyirmi masa, tələbə konfransları, yarışlar, ekskursiya və yürüşlər və s. imkanlarından faydalanmaq səmərəli nəticələr verir.

“Sosiallaşmış” termini şəxsiyyətdə sosial yetkinliyin, sosial keyfiyyətlərin inkişafının səviyyəsini göstərir. Pedaqoji, fəlsəfi, sosioloji, psixoloji tədqiqatlarda “sosiallaşma”ya bir sıra təriflər verilir. Eyni zamanda uşaqlardan ötrü nəyin sosiallaşma olmadığına da münasibət bildirilir.

Sosiallaşma prosesində başlıca istinad nöqtəsi öz “mən”inin dərk edilməsi və başa düşülməsidir. Bu, şəxsiyyətin öz müstəqilliyinə nail olması ”Mən” obrazının formalaşması prosesində iki fərqli məqamdır. Öz “Mən”ini başa düşmə - şəxsiyyətin sərvət özəyinin inkişafı prosesi kimi nəzərdən keçirilə bilər.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. Tələbələrdə əxlaqi ideallların tərbiyə olunması, onların milli-mənəvi dəyərlərə yiyələnmələri, milli adət və ənənələri qorumaları və yaşatmaları, Vətən sevgisi, yaratmaq-qurmaq eşqi, nümunəvi davranış və rəftar tərzi, kamilləşmək ehtiyacı vacib şərtdir. Ali təhsil müəssisələrinin pedaqoji kollektivlərinin bu məsələni nəzərə almaları məqsədəuyğundur.

2. Milli-mənəvi inkişaf o zaman tam məzmunlu və aktual olur ki, həyatla, real sosial problemlərlə çulğalaşsın. Həmin problemləri də öz növbəsində əxlaqi seçim əsasında həll etmək vacib olsun. Buna xüsusi proqram və metodik tədrisin köməyi ilə nail olmaq mümkündür.

Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələrlə bağlı dissertasiya **müəllifinin** aşağıdakı **əsərləri** nəşr olunmuşdur:

1. Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin bəzi məsələləri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2017. - № 4. – s. 49-52.

2. Tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması: mahiyyəti, məqsəd və vəzifələri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018. - № 8. – s. 88-93.

3. Tələbələrin sosiallaşması yeni pedaqoji təfəkkürün tələbi kimi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018. - № 4. – s. 35-38.

4. Проблемы социализации студентов // -Одесса: Інноваційна педагогика. Науковый журнал, 2019. № 9. Т. 2. – с. 142-146.

5. Milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə aparılan işlər tələbələrin sosiallaşmasının başlıca şərti kimi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2019. - № 2. – s. 77-80.

6. Şəxsiyyətin milli-mənəvi mədəniyyətinin formalaşdırılmasının tarixi, fəlsəfi və sosial-pedaqoji aspektləri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2020. - № 1. – s. 77-80.

7. Təlim prosesində tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanları və yolları // -Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2021, № 2. - s.

8. Auditoriyadankənar tədbirlər tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması və sosiallaşmanın təşəkkülü vasitəsi kimi / -Bakı: "Müəllim hazırlığı strateji hədəflərdən biri

kimi” mövzusunda respublika elmi konfransının materialları. Bakı şəhəri, 18 may 2018-ci il. Bakı, 2018. – s. 226-227.

9. Формирование национально- нравственной культуры у студентов как основа социализации / -Москва: Сборник научных статей, по итогам работы Международного научного форума, 2019, т. 1, с. 43-45.

10. National–moral culture and problems of students socialization / -USA, Boston: LXVII international scientific and practical conference “International Scientific Review of the Problems and Prospects of Modern Science and Education”, February 22, 2020. pp. 60-63.

11. Auditoriyadankənar tədbirlər zamani tələbələrdə milli-mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin imkanları və yolları / -Bakı: Müasir təhsilin məzmununda milli-mənəvi və ümumbəşəri dəyərlər” mövzusunda onlayn elmi konfransın materialları. BDU, 04 may 2021-ci il. –Bakı, 2021

Dissertasiyanın müdafiəsi 21 oktyabr 2022-ci il tarixində saat 12⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Az 7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 20 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı:
Həcm:36,128 (işarə sayı)
Tiraj: 100